

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

Heydər Əliyev


# MÜBARİZ KEŞİKDƏ

1 oktyabr 2020-ci il
Cümə axşamı

№ 35 (3500)

www.mk.mia.gov.az - polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNDU



Sentyabrın 28-də BMT-nin Baş katibi Antonio Quterreşin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında videokonfrans formatında görüş olub.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi təxribatla bağlı hadisələrin gedişinə dair məlumat verib. Qeyd edib ki, sentyabrın 27-də Ermənistan təmas xətti boyunca Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutub və bunun nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olublar. Azərbaycan tərəfi özünümüdafiə məqsədilə uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan tərəfi birinci dəfə deyil belə hərbi təxribatlar törədir. Belə ki, işğalçı ölkə bu ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədində buna oxşar təxribat həyata keçirib, avqust ayında isə erməni diversiya dəstəsi təmas xəttini keçməyə cəhd edib. Eyni zamanda, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinə başqa ölkələrdən xarici vətəndaşların qanunsuz məskunlaşmasını həyata keçirir ki, bu da Cenevrə Konvensiyasına görə beynəlxalq hüququn ciddi pozulmasıdır.

Dövlətimizin başçısı onu da qeyd edib ki, Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələri yaradıb.

Prezident İlham Əliyev söhbət zamanı Ermənistanın yeni müharibəyə hazırlaşmasını BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışında qeyd edib.

Dövlətimizin başçısı bildirib ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Prezident İlham Əliyev deyib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmalıdır.

Söhbət zamanı Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr olunmuş Xüsusi Sessiyası müzakirə edilib və dövlətimizin başçısı bu təşəbbüsə göstərdiyi dəstəyə görə BMT Baş katibinə minnətdarlığını bildirib. Prezident İlham Əliyev Azərbaycanın COVID-19 ilə mübarizə istiqamətində beynəlxalq müstəvidə səylərini bundan sonra da əsirgəməyəcəyini qeyd edib.

Videokonfrans formatında keçirilən görüşdə Azərbaycanla BMT arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

## Mehriban Əliyeva: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"

"Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!"

Bu fikir Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsindəki paylaşımında yer alıb.



Paylaşımda daha sonra deyilir: "Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir.

Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdaram. Onların həmrəyliyi və mənəvi dəstəyi bu gün hər bir azərbaycanlıya qürur hissi yaşadır.

Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!

Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!

Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!

Allah şəhidlərimizə rəhmət etsin! Qəbirləri nurla dolsun!".

## HƏRBİ VƏZİYYƏT DÖVRÜNDƏ KOMENDANT SAATININ TƏTBİQ EDİLDİYİ ƏRAZİLƏRİN KOMENDANTININ TƏYİN EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli 1166 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

*Azərbaycan Respublikasının Daxili İşlər naziri Vilayət Süleyman oğlu Eyvazov hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantı təyin edilsin.*

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 28 sentyabr 2020-ci il.*

## Türkiyədən Azərbaycana böyük dəstək

Sentyabrın 27-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Prezidenti Ermənistanın hərbi təxribatı nəticəsində Azərbaycan mülki şəxslərinin və hərbi qulluqçularının həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verib, onlara Allahdan rəhmət diləyib. Rəcəb Tayyib Ərdoğan həmişə olduğu kimi, bu gün də Türkiyənin Azərbaycanın yanında olduğunu vurğulayıb.

Başsağlığına görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyə Prezidentinin daimi dəstəyini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev cəbhə xəttində Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində baş verən hadisələrin gedişi barədə məlumat verib.

Dövlət başçıları dost və qardaş Azərbaycanla Türkiyə arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

## Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyindən

Məlum olduğu kimi, 2020-ci il sentyabr ayının 28-i saat 00:00-dan etibarən Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan olunmuş və bu dövrdə Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında saat 21:00-dan ertəsi gün saat 06:00-dək komendant saatı tətbiq ediləcəkdir.

Nəzərə çatdırılır ki, komendant saatının qüvvədə olduğu müddətdə şəxslər hərbi vəziyyət rejiminin tətbiq edildiyi inzibati ərazi vahidlərində yalnız xidməti vəsiqə əsasında və "icaze.e-gov.az" portalında qeydiyyatdan keçib xüsusi icazə aldıqda hərəkət edə biləcəklər.

Bununla əlaqədar komendant saatının tətbiq edildiyi şəhər və rayonlarda yaşayan yaxud həmin ərazilərə giriş-çıxış edən sakinlərdən və digər şəxslərdən gedəcəkləri ünvanadək olan məsafəni nəzərə alıb komendant saatı başlayanadək səfərlərini, öz işlərini başa çatdırmaq, eləcə də komendant saatı dövründə xüsusi icazə və şəxsiyyəti təsdiq edən sənəd olmadan yaşadıqları (qaldıqları) ünvanı tərk etməmək xahiş olunur.

Həmin müddətdə hərəkətinə xidməti vəsiqə əsasında icazə verilən dövlət orqanlarının əməkdaşlarının, habelə fəaliyyətinə icazə verilən sahələrin siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş, habelə Daxili İşlər Nazirliyi xüsusi icazələrin verilməsi qaydasını təsdiqləmişdir (əlavə olunur).

Xidməti vəsiqə əsasında və "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə hərəkətinə icazə verilmiş şəxslərin xidməti və fərdi nəqliyyat vasitələrindən istifadə etmələrinə yol verilir.

Komendant saatı müddətində tibb müəssisəsinə təcili tibbi yardım avtomobili ilə yaxud yaxın qohumları tərəfindən aparılan şəxslərin hərəkətinə şərait yaradılacaqdır.

Diqqətə çatdırılır ki, vəfat edən şəxsin dini qaydalara uyğun dəfnə hazırlanması üçün onun yaxın qohumları Daxili İşlər Nazirliyinin "102" Xidmətinə və ya "Qaynar xətt"inə (012 590-80-20) etdikləri müraciət üzrə aparılan araşdırmalardan sonra sərbəst hərəkət edə bilərlər.

Hərbi vəziyyət rejiminin tələblərini pozan, komendant saatının təmin olunmasına cəlb edilmiş polis əməkdaşlarının və hərbi qulluqçuların qanuni tələblərinə əməl etməyən şəxslər haqqında hüquqi məsuliyyət tədbirləri görüləcəkdir.

**Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşüblər.**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da "COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi" mövzusunda dövlət və hökumət başçılarının toplantısında videoformatda çıxış edib.*

*Sentyabrın 26-da ölkəmizin rəhbəri Xarkov vilayətində hərbi təyyarənin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Ukraynanın Prezidenti zati-aliləri cənab Vladimir Zelenskiyə başsağlığı teleqramı göndərib.*

*Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 26-da milli bayram – Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə təbrik məktubu ünvanlayıb.*

*Ölkəmizin rəhbəri sentyabrın 27-də Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında sərəncam imzalayıb.*

*Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 28-də Alman Birliyi Gününün 30-cu ildönümü münasibətilə Almaniya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Frank-Valter Ştaynmayerə təbrik məktubu ünvanlayıb.*

# PREZİDENT İLHAM ƏLİYEV ERMƏNİ YALANLARINI İFŞA ETDİ

**Ölkəmizin başçısı sentyabrın 29-da “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramında sualları cavablandırıb. Müsahibənin aktuallığını nəzərə alıb diqqətinizə çatdırırıq.**

**Aparıcı:** ***Cənab Prezident, sağ olun ki, bu müsahibəni verməyə razılaşmısınız. İndi birbaşa cəbhədə nələr baş verir, artıq aviasiyadan istifadə edilməsi barədə məlumat alınır.***

**Prezident İlham Əliyev:** Cəbhədə vəziyyət gərgindir. Ermənilərin sentyabrın 27-də səhər başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olub, hərbi qulluqçular arasında da həlak olanlar var. Biz təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik. Beləliklə, artıq üçüncü sutkadır ki, şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır.

**Aparıcı:** ***İlham Heydər oğlu, xahiş edirəm Türkiyənin rolunu izah edin. Ankara Prezidentin və Xarici İşlər nazirinin şəxsində rəsmən bəyan edib ki, döyüş meydanında Sizə kömək edəcək.***

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, Türkiyənin rolu regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə bizə qardaş ölkə və bizim müttəfiqimizdir. Ermənistanın Azərbaycana hücum etməsini dünya ictimaiyyətinin bildiyi ilk saatdan etibarən Türkiyə dövlət başçısı və digər rəhbərlər səviyyəsində birmənalı olaraq Azərbaycanı dəstəklədiyini, beynəlxalq hüququ dəstəklədiyini bildirib. Ona görə ki, Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan ərazisini işğalda saxlamaqla beynəlxalq hüququ kobud şəkildə pozur. Türkiyənin rolu, əslində, məhz bundan ibarətdir, başqa heç bir rolu yoxdur. Türkiyə bizə mənəvi dəstək göstərir və biz Türkiyə rəhbərliyinə, Türkiyə Prezidentinə və türk xalqına bizimlə həmrəy olduğuna və bizi dəstəklədiklərinə görə təşəkkür edirik. Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır, indiki dildə desək bu, feyk-nyusdur. Türkiyənin münaqişədə iştirakı barədə heç bir sübut yoxdur və buna zərurət yoxdur. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır.

**Aparıcı:** ***İlham Heydər oğlu, beləliklə, Siz belə bir informasiyanı təsdiq etmirsiniz, üstəlik onu təkzib edirsiniz ki, bir saat bundan əvvəl Türkiyə Hərbi Hava Qüvvələri Ermənistan Hərbi Hava Qüvvələrinə məxsus təyyarəni vurub. Söhbət F-16 və SU-25 təyyarələrindən gedir.***

**Prezident İlham Əliyev:** Bizim bu barədə məlumatımız yoxdur. Lap yaxın vaxtda mənə məruzə ediblər ki, informasiya məkanında belə bir xəbər yayılıb. O, heç nə ilə təsdiq edilməyib. Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələri döyüş əməliyyatlarında heç bir şəkildə iştirak etmir. Bilirsiniz ki, bu gün müasir texnologiyaları nəzərə alsaq nəyisə gizlətmək çox çətindir. Çünki obyektiv müşahidə formaları var, peyk müşahidələri var və ona görə də bunun növbəti təxribat olmasını yoxlamaq çox asandır. Erməni tərəfin bu cür yalan xəbərlər yaratmaqda məqsədi bizə aydındır. Əvvəla, öz ərazi bütövlüyünün bərpası vəzifəsini hazırda şərəflə yerinə yetirən Azərbaycan Ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaq, həmçinin belə təsəvvür yaratmaq ki, münaqişə genişlənir, ona üçüncü ölkələr qoşulur və beləliklə, öz təxribatına haqq qazandırmaq üçün mümkün qədər çox ölkə cəlb etməyə çalışmaq. Buna görə sizə məsuliyyətlə bəyan edirəm ki, Türkiyə münaqişə tərəfi deyil, münaqişədə heç bir şəkildə iştirak etmir və buna zərurət yoxdur.

**Aparıcı:** ***İlham Heydər oğlu, Sizin ölkəniz Ermənistan tərəfindən bir neçə rayonun azad edilməsini nəzərdə tutan Kazan formuluna və ya hər hansı başqa formula tərəf meyil etməyə hazırdırmı? Prinsip etibarilə indi nə etmək olar? Otuz il ərzində Qarabağ münaqişəsinin gah alovlanması, gah da közərməsi şəraitində necə dönüş etməli? Nə etməli?***



**Prezident İlham Əliyev:** Bilirsiniz, Azərbaycan danışıqlarda həmişə konstruktivlik nümayiş etdirib. Vasitəçilik missiyası üçün cavabdeh olan Minsk qrupunun həmsədrləri də bunu təsdiq edə bilərlər. O cümlədən son iki ildə mən dəfələrlə və başqa məsul şəxslər səviyyəsində bəyan etmişik ki, biz illər boyu işlənib hazırlanmış, Minsk qrupunun və onun həmsədrlərinin danışıqlar prosesi üçün əsas hesab etdikləri nizamlama prinsiplərinə sadiqik. Üstəlik son iki ildə və bundan əvvəl də dəfələrlə bəyan etmişik ki, biz danışıqların formatına da sadiqik. Danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır. Münaqişənin yalnız iki tərəfi var. Bəzən münaqişədən söhbət gedəndə bütün tərəflər haqqında danışırlar. Bu, düzgün anlayış deyil. Bütün tərəflər yoxdur, yalnız iki tərəf var - Ermənistan və Azərbaycan. Lakin son illər ərzində, Ermənistandakı indiki hakimiyyətin törətdiyi Soros çevrilişindən sonra nələr baş verib? Ermənistanın baş naziri açıq-aşkar bəyan edir ki, “Qarabağ Ermənistandır və nöqtə”. Belə olan halda hansı danışıqlar prosesindən söhbət gedə bilər. Axı, ATƏT-in Minsk qrupu tərəfindən işlənib hazırlanmış prinsiplərin mahiyyəti ondan ibarətdir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı ərazilər Azərbaycana verilməlidir. Lakin Ermənistanın baş naziri deyir ki, “Qarabağ Ermənistandır” və üstəlik, deyir ki, biz danışıqları Dağlıq Qarabağın oyuncaq rejimi ilə aparmalıyıq. Beləliklə, danışıqların artıq 20 ildən bəri mövcud olan formatını dəyişməyə çalışır. Deməli, Ermənistan bilərəkdən danışıqlar prosesini pozur, qəbuledilməz tələblər irəli sürür və əgər Minsk qrupu son vaxtlar nizamlamaya kimin əngəl olması barədə daha fəal danışmağa başlayırsa, sentyabrın 27-də, bundan əvvəl isə iyulun 12-də olduğu kimi, təxribatlar törədirlər. Bizim dövlət sərhədindəki mövqelərimizə hücum edilib. Sonra avqustun 23-də Ermənistanın təxribat qrupu tutulub, bu qrupun başçısı təmas xəttində saxlanılıb. Bütün bunlar Azərbaycanı təqsirləndirmək, sonra üçüncü tərəfləri cəlb etmək və beləliklə, danışıqlar prosesini pozmaq üçün edilir. Ona görə ki, erməni tərəfi status-kvonu saxlamaq istəyir. ATƏT-in Minsk qrupunun həmsədrləri isə Rusiya, Fransa və ABŞ-ın dövlət başçılarının şəxsində dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Bu isə o deməkdir ki, işğal altında olan ərazilər Azərbaycana qaytarılmalıdır. Biz danışıqlara sadiqik, lakin Ermənistan tərəfindən tamamilə əks hərəkətlər görürük.

**Aparıcı:** ***Cənab Prezident, xahiş edirəm deyin, bazar günü nə baş verib, bu qədər genişmiqyaslı və qanlı qarşıdurmaya təhrik edən nə olub?***

**Prezident İlham Əliyev:** Bilirsinizmi, bazar günü baş verən hadisələrə Ermənistan artıq bir neçə ay idi ki, hazırlaşırdı. Əgər siz onların hərəkətlərinin və bəyanatlarının xronologiyasını izləsəniz aşkar görərsiniz ki, onlar bu təxribata şüurlu şəkildə gedirdilər. Bu yaxınlarda, BMT Baş Assambleyasının tribunasından çıxış edərkən mən açıq demişəm ki, Ermənistan müharibəyə hazırlaşır və onu dayandırmaq lazımdır. İyul ayında onlar bizim dövlət sərhədindəki yaşayış məntəqələrimizə silahlı hücum etdilər. Bu, münaqişə zonasından uzaq bir yerdir. O vaxt bir dinc sakin və bir neçə hərbi qulluqçu həlak oldu. Döyüşlər dörd gün davam etdi və Ermənistan ərazisində bizim heç bir hərbi hədəfimiz olmayıb və yoxdur. Buna görə də Ermənistan silahlı qüvvələri bizim ərazidən çıxarılandan dərhal sonra qarşılıqlı razılaşmaya əsasən atəş dayandırıldı. Daha sonra mənim dediyim kimi, təxribat qrupu bizim ərazimizə soxuldu, həmin qrup neytrallaşdırıldı. Sonra erməni tərəfi açıq-aşkar, nümayişkaranə şəkildə əslən Livandan olan ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərində və qədim Şuşa şəhərində məskunlaşdırılmasını elan edir, bu da müharibə cinayətidir. Bu, Cenevrə Konvensiyasının pozulması deməkdir. Bunu nümayişkaranə şəkildə edirlər. Sonra onlar Şuşada – Azərbaycan mədəniyyətinin qədim incisində cinayətkar Dağlıq Qarabağ rejiminin qondarma başçısının qondarma inauqurasiyasını keçirirlər. Bütün bunlar bizə qarşı şüurlu provokasiyalar, bizi münaqişəyə cəlb etmək və cavab hərəkətlərinə təhrik etməkdir. Biz təmkin, konstruktivlik və sağlam düşüncə nümayiş etdirdik, lakin onların niyyətləri baş tutmayanda bu cür cəhd göstərdilər. Üstəlik, daha bir səbəb Ermənistanda mövcud olan daxili siyasi böhrandır. Axı, bu gün Ermənistanda Soros rejimi mövcuddur. Belarusda baş tutmayan çevriliş iki il bundan əvvəl Yerevanda baş tutdu. Bu gün Paşinyanın şəxsində Ermənistanın rəhbəri Sorosun əlaltısıdır. Bu adam çoxlu vədlər verib və bu vədləri yerinə yetirə bilmir, əslində, ölkə böhran içindədir.

Beləliklə, ona bir xarici amil, necə deyərlər, qarışıqlıq lazım idi ki, əhalinin diqqətini yayındırsın, o da bunu edə bildi. Onlar növbəti dəfə bizə hücum etməzdən düz iki gün əvvəl Ermənistanın əsas müxalifət partiyasının lideri həbs edildi. Yəni, Paşinyanın diktator, despotik rejimi öz ölkəsindəki bütün müxalifəti məhv edirdi və indi Azərbaycan xalqına qarşı yenidən təcavüz nümayiş etdirir.

**Aparıcı:** ***Sizin mövqeyiniz aydındır. Çox sağ olun. Mümkündürsə lap qısa cavab verin: hə, ya yox. İndi cəbhədə Suriyadan olan muzdlular varmı?***

**Prezident İlham Əliyev:** Yoxdur. Bu, növbəti feyk-nyusdur. Suriyadan heç bir muzdlu yoxdur. Bu barədə heç bir fakt, heç bir sübut yoxdur. Bunu erməni təbliğatı ortaya atıb və müxtəlif saytlarda, müxtəlif kütləvi informasiya vasitələrində dövr edir. Buna heç bir ehtiyac yoxdur. Azərbaycanın hazırlıqlı ordusu var, çox böyük səfərbərlik ehtiyatı var. Dünən mən qismən səfərbərlik elan etmişəm. Biz 2 milyon əhalisi olan Ermənistana qarşı 10 milyon əhalidən 10 minlərlə ehtiyatda olanları orduya çağırırıq, bizim insan ehtiyatlarına ehtiyacımız yoxdur. Buna görə də biz özümüzü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin.

**Aparıcı:** ***Çox sağ olun. İlham Əliyev bizimlə Bakıdan əlaqədə idi. Sizə cansağlığı arzulayırıq, görüşənədək. Çox sağ olun.***

**Prezident İlham Əliyev:** Sağ olun. Görüşənədək.

# *Tərtər Rayon Polis Şöbəsinə ziyan dəyib*

Hərbi qüvvələrimizlə bacara bilməyən təcavüzkar Ermənistan ordusu yaşayış məntəqələrimizi və mülki obyektləri hədəf seçir. Düşmən tərəfindən atılan mərmilərdən biri Tərtər rayon Polis Şöbəsinin inzibati binasının həyətinə düşüb. Zərbə o qədər güclü olub ki, mərminin qəlpələri inzibati binanın dəhlizlərinə qədər səpələnib. Xoşbəxtlikdən xəsarət alan olmasa da, binaya ciddi ziyan dəyib.







Bu bir daha onu göstərir ki, döyüş meydanında ağır zərbələr alan düşmən cəbhədən xeyli aralıda olan yaşayış məntəqələrimizi, orada yaşayan mülki əhalini hədəf seçməkdə davam edir.

# ERMƏNİ TƏCAVÜZÜ DÜNYA MƏTBUATINDA

***Ermənistanın növbəti hərbi təxribatı Misir mətbuatında yer alıb***

Misirin “Rayetmısr” və “Egyptnewsonline” informasiya portalları Ermənistanın növbəti hərbi təxribatı barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi- Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bəyanatını yayıb.




Bəyanatda bildirilib ki, Ermənistanın yaşayış məntəqələrini, mülki əhalini qəsdən hədəfə alması beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarının kobud surətdə pozulmasıdır. Mülki insanların hədəfə alınması Ermənistan silahlı qüvvələrinin döyüş hazırlığına daxil edilmiş taktikadır və onun ən bariz nümunəsi 1992-ci ilin fevral ayında törədilmiş Xocalı soyqırımıdır.

***Çin KİV-ləri Ermənistanın cəbhədəki təxribatı barədə xəbərlər yayıb***

Çinin nüfuzlu kütləvi informasiya vasitələri Ermənistan Respublikası silahlı qüvvələrinin təmas xəttində atəşkəs rejimini kobud şəkildə pozaraq, növbəti dəfə təxribat törətməsi və Azərbaycan Ordusunun cavab tədbirləri həyata keçirməsini diqqətdə saxlayıb. Milli xəbər agentliyi Sinxua, rəsmi "Jenmin Jibao" qəzeti, nüfuzlu “China Daily” qəzeti və digər KİV-lər Azərbaycan Respublikası Prezidentinin köməkçisi- Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin, Azərbaycanın Müdafiə Nazirliyinin mövzu ilə bağlı açıqlamalarına geniş yer veriblər.




*Ardı 3-cü səhifədə.*

# Bu, Vətən müharibəsidir!

**Bu gün hər birimizin ürəyi cəbhə ilə döyünür. Qələbə soraqlı xəbərlər gözləyirik Azərbaycan Əsgərindən. Hər kəsin dilində bircə söz var: Biz, qalib gələcəyik! Bu inamın, bu arzunun artıq bir qərinə yaşının tamam olmasına az qaldığı dönəmdə düşmənin yeni torpaqlar tutmaq üçün hücum cəhdi bıçağın sümüyü də kəsməsi demək idi.**




Torpaq namusdur, torpaq qeyrətdir. Əldən getdimi, onun üstündə gəzmək sənə haramdır. Biz bu utanc hissi ilə heç vaxt yaşaya, bu işğalla qiyamətə qədər barışa bilməzdik.

Hərgah düşmənə açıq-gizli şəkildə kömək edənlər, ATƏT deyilən nəsnə bu qisası qiyamətə qədər saxlamaqdan ötrü "Münaqişə yalnız sülh yolu ilə həll olunmalıdır",-deyib başımızın altına yastıq qoyurdular. Düşmən isə bundan daha da ruhlanır, dinc əhalini belə atəşə tutmaqdan çəkinmirdi. Ermənistana havadarlıq edənlər bu illər ərzində faciələrimizi görməmək üçün gözlərini yumub, günahsız körpə Fidanlarımızın qanını tökən bombaların səsini eşitməmək üçün qulaqlarını bağlamışdılar. Bizim səsimizi onlar eşitmirdilər...

2016-cı ilin aprelində haqq müharibəmizi yarımçıq dayandırdılar. Çünki varlığı təhlükə altında qalan Ermənistan idi. Tovuz hadisələrinə isə onların münasibəti belə oldu: "Biz tərəfləri sülhə, danışıqlar masasına dəvət edirik". Yenə də beynəlxalq səviyyədə haylara təpinib "Ay murdar, bura Azərbaycan sərhəddidir",-deyən olmadı.

Bir neçə gün bundan öncə başlayan erməni təxribatı səbrimizi elə daşırdı ki, bütün "olmazlara", yalnız bizim əl-qolumuzu bağlamağa hesablanmış "hüquq normalarına" qurşun sıxıb torpaqlarımızın bütövlüyünü təmin etmək, illərdir ki, o yurdlara həsrət qalan həmvətənlərimizin Vətənsizlik yanğısına son qoymaq üçün Ali Baş Komandanın əmri ilə arzularımızı gerçəkləşdirməkdən ötrü sıralandıq.

Bu, Vətən müharibəsidir. Bu müharibə Çanaqqala savaşının davamıdır Qarabağda. Düşmən əsgərindən fərqli olaraq, Azərbaycan Əsgəri nəyin uğrunda vuruşduğunu yaxşı bilir. Onun qarış-qarış azad etdiyi torpağın sevincini ondan başqa kimsə duya bilməz. Torpağını azad etmək dünyanın ən böyük xoşbəxtliyidir...

Ali Baş Komandanın "Düşmən əsgərinin Qarabağda nə işi var? sualı bu gün Ermənistan rəhbərliyinə, erməni xalqına çox baha başa gəldi. İşğal etdiyi Azərbaycan torpaqlarında keçilməz sədlər qurmağı ilə öyünən Ohanyanlar, Tonayanlar və onların əsgərləri başlarına hər an düşə biləcək bombanın qorxusundan indi gizləndikləri yerdən çıxa bilmirlər.

Əslində, biz ildırımsürətli əks hücumla Qafqazın ən güclü, qorxmaz ordusuna sahib olduğumuzu isbatlayaraq düşmənə deyil, həm də onu dəstəkləyənlərə ömür boyu utanc hissi ilə xatırlayacaqları tarixi bir dərs veririk.

Düşmən böyük dövlətlərə müharibəni dayandırmaq üçün mesaj göndərir, göz yaşı töküb yalvarır. Ox yaydan çıxdısa, o bir daha dönməz. Bu gün kimsə bizə cürət edib "dayanın" deyə bilməz, çünki bu, bizim haqqımızdır. Çünki bu şəhid oğlunu qarşılayarkən: **"Vətənin çörəyi sənə halal olsun, oğlum. Səni anan qarşılayır. Canın bu Vətənə halal olsun. Sənə ömrüm halal olsun",-** deyən ŞƏHİD anasının haqqıdır. İllərdir ki, əlimizdən alınan HAQQIMIZI bundan sonra nə kimsəyə verərik, nə də kimsəyə yedirtmərik.

Yaxşı bilirik ki, tökülən qanları, alınan canları, ömrü yarım qalmış ərənlərimizi danışıqlar masası geri qaytarmaz.

Bu, Vətən müharibəsidir. Bu gün hər birimiz AZƏRBAYCAN ƏSGƏRİYİK. Və bu arada dostumuzun, düşmənimizin də kim olduğunu bildik.

Qarabağ təkcə Azərbaycanın deyil, Qarabağ Türk dünyasınındır. Azərbaycana atılan bir güllə, bir mərmi, əslində, həm də Türk dünyasına atılır. Biz qanı, canı bizdən olanların silahla, əsgərlə köməyimizə gəlməsini deyil, yalnız bizimlə həmrəy olduqlarını dünyada duyurmalarını eşitmək istəyirik.

O müqəddəs günə az qalıb. Döyüş meydanında Azərbaycan əsgəri tək deyil, bu gün Azərbaycan xalqı 7-dən 77-yə əsgərdir. Və bu otuz il ərzində şəhid olan hər bir Azərbaycan övladı da düşmən üzərinə hücuma keçən Vətən oğullarının sırasındadır.

Qələbə sənin olacaq Vətən, Qələbə xəbərini Şuşaya sancdığın bayraqla bizə sən verəcəksən, AZƏRBAYCAN ƏSGƏRİ!

**P.S.** ***Ordumuzun azad etdiyi kəndlərin sakinlərinə bundan sonra məcburi köçkün deməyək. Çünki onlar çox yaxın zamanda, lap günü sabah yurdlarına qayıdacaqlar...***

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

*Əvvəli 2-ci səhifədə.*

# ERMƏNİ TƏCAVÜZÜ DÜNYA MƏTBUATINDA

***Yaponiya KİV-ləri Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı barədə məlumatlar yayıb***

Yaponiyanın NHK telekanalı, Kyodo, Jıjı Press kimi nüfuzlu agentlikləri, "Mainichi shimbun", "Yomiuri shimbun" qəzetləri və digər KİV-ləri bölgədə vəziyyətin gərgin olduğunu, döyüşlərin daha böyük qarşıdurmaya səbəb ola biləcəyini yazıblar.

Məqalələrdə münaqişənin tarixinə toxunularaq Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğu, lakin SSRİ-nin dağılması ərəfəsində Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyi vurğulanır.

***Mərakeş nəşri Qarabağda hərbi əməliyyatlar barədə yazıb***

Mərakeşin məşhur "hespress.com" internet portalının və onlayn qəzetinin fransız dilində yayılan versiyasında "Qarabağda hərbi əməliyyatlar: Azərbaycan və Ermənistan müharibə həddindədir" sərlövhəli məqalə dərc edilib.




Məqalə bu sözlərlə başlanır: "Bu gün Azərbaycan Dağlıq Qarabağ regionunda Ermənistan tərəfindən dəstəklənən separatçıların silahlı hücumlarının səslərindən oyanıb. Azərbaycan ordusu ilə separatçılar arasında döyüşlər nəticəsində dinc sakinlər və hərbçilər həlak olub".

***İndoneziya mətbuatında Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatı barədə məqalələr dərc olunub***

İndoneziya mətbuatı da sentyabrın 27-də səhər saatlarında Ermənistan ordusunun Dağlıq Qarabağ regionunda Azərbaycana qarşı növbəti təxribatı və ordumuzun cavab tədbiri olaraq əks-hücuma keçməsi barədə məlumatlar yayıb.

İndoneziyanın ANTARA agentliyi, "Republika" nəşri, "jpnn.com", "sinarharapan.co", "kupang.tribunnews.




com", "viva.co.ıd" saytları və digər KİV-ləri vəziyyətin çox gərgin olduğunu yazıblar.

**ABŞ, Macarıstan, Albaniya, Bosniya, Niderland, Serbiyanın, Fransa və Tacikistan** kütləvi informasiya vasitələrində Ermənistan silahlı qüvvələrinin cəbhəyanı ərazilərdə sıx şəkildə yaşayan mülki insanları və obyektləri atəşə tutması




qəsdən və hədəflənmiş şəkildə həyata keçirilməsi, mülki əhali və hərbi qulluqçular arasında həlak olanlar və yaralananlar barədə geniş məlumat verilib.

***Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən sentyabrın 28-də saat 21:00-dan 06:00-dək respublikamızın bir sıra şəhər və rayonlarında Komendant saatı tətbiq edilib.***





# Bakıda qurulan komendant postlarından



***Bununla əlaqədar polis əməkdaşları Daxili Qoşunların hərbi qulluqçuları ilə birgə postlarda xidmətə cəlb olunublar.***







# Vətənə xidmətdə yaş məhdudiyyəti yoxdur...

**Xalqımız ta bineyi-qədimdən yaşlılara, ahıllara böyük hörmətlə yanaşıb və onların tövsiyələrindən yararlanmağa çalışıb. "Keçmişinə dəyər verməyən xalqın gələcəyi olmaz",- deyib müdriklərimiz. Mental dəyərlərimizdən irəli gələn bir xüsusiyyətimizi - ağsaqqallara, ağbirçəklərə ehtiramımızı bu gün də qoruyub-saxlayır və gələcək nəsillərə ərməğan edirik. Onlar canlı tarix, həyat təcrübələri isə sözün əsl mənasında sərvətdir.**



BMT-nin Baş Məclisinin Ahılların Müdafiəsi ilə bağlı 1992-ci ildə qəbul etdiyi Qətnamənin prinsiplərinə uyğun olaraq, hər il oktyabrın 1-i "Beynəlxalq Ahıllar günü" kimi qeyd olunur.

Yeri gəlmişkən, 2001-ci il iyunun 22-də ölkəmizdə "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanuna əsasən, 70 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl sayılır.

Ulu öndərin ali hakimiyyətə qayıdışından sonra, Azərbaycanda "Beynəlxalq Ahıllar günü"nün qeyd olunması geniş vüsət aldı.

Uzun illər daxili işlər orqanlarında ömrünü, gününü çətin və şərəfli peşəyə həsr edərək ləyaqətlə çalışanlar təqaüdə çıxsalar da bu gün də bizimlədirlər. Onların zəngin həyat yolu gənc əməkdaşlar üçün əsl örnəkdir. Bizim onlara hər zaman ehtiyacımız var. Onların bilik və bacarıqlarından yararlanmaq həm xidməti fəaliyyətimizdə peşəkarlığımızın artırılmasında, həm də həyat təcrübəmizdə köməyimizə gəlir. Onların məsləhətləri bizləri düz yolla irəliləməyə, büdrəməməyə, bütün çətinliklərə sinə gərməyə istiqamətləndirir və güc verir. Onların isə bizdən umacağı yalnız xatırlanmaq və qayğıdır. Xatırlayaq ki, xatırlananlardan olaq, dəyər verməyi bacaraq ki, gələcəyimiz işıqlı, parlaq olsun.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# DİN-in Polis Akademiyası 2020-ci il üçün doktoranturaya və dissertanturaya qəbul elan edir

Azərbaycan Respublikası DİN-in Polis Akademiyası 2020-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul elan edir.

**Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya** sənədlər 14 sentyabr - 7 oktyabr 2020-ci il tarixlərində hər gün (bazar və bayram günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək, qəbul ediləcək.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan daxili işlər orqanları əməkdaşları müsabiqə əsasında qəbul olunurlar.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyən əməkdaşlar xarici dildən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verməlidirlər.

Xarici dildən imtahanda keçid balını toplayan əməkdaşlar fəlsəfədən imtahana buraxılırlar.

Fəlsəfədən məqbul alan əməkdaşlar ixtisas imtahanına buraxılırlar.



Doktoranturaya və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər DİN-in Polis Akademiyasına təqdim olunmalıdır:

*- DİN-in Polis Akademiyasının rəisinin adına raport;;*
*- kadrların şəxsi-qeydiyyat vərəqi;*
*- tərcümeyi-hal;*
*- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
*- iş yerindən xasiyyətnamə;*
*- əmək kitabçasından çıxarış;*
*- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat (fəlsəfə doktoru hazırlığı üzrə);*
*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, TestDaf, DALF) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin ekvivalentliyi AMEA və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyənləşdiriləcək.

**Dissertantlıq yolu ilə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertanturaya** ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan, müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan, azı iki il elmi və elmi-pedaqoji iş stajına malik elmi və elmi-pedaqoji kadrlar sənəd təqdim edə bilərlər.

Dissertantlıq yolu ilə təhsil müddətini başa vuran əməkdaşlar eyni ixtisas üzrə təkrar dissertant ola bilməzlər.

Doktoranturada tam təhsil müddətini başa vurmuş əməkdaşlar eyni ixtisas üzrə dissertantlıq yolu ilə təhsil ala bilməzlər.

Dissertantlıq yolu ilə fəlsəfə doktoru elmi dərəcəsi almaq istəyən əməkdaşlar xarici dildən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verməlidirlər.

**Əlaqə telefonları: (+994 12) 454-13-85, 454-34-57.**
**E-mail: ehg69@mail.ru**

# “Xəzri” sizi gözləyir!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan“Xəzri” İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 16 sentyabr 2020-ci il - 31 may 2021-ci il tarixlərə qiymətləri (daxili işlər orqanlarının əməkdaşları üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında” Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 6 yaşdan yuxarı şəxslər COVİD-19 testinin neqativ nəticəsi barədə 2 gün qüvvədə olan arayış təqdim edir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə “Koroğlu” metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 16 sentyabr 2020-ci il - 31 may 2021-ci il | | |
|---|---|---|
| (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |

# Dəymiş maddi ziyan ödətdirildi




**Sabunçu rayon Polis İdarəsinin İstintaq şöbəsi əməkdaşları tərəfindən dələduzluq əməli törədən şəxs saxlanılıb.**

Sabunçu RPİ İstintaq şöbəsinin rəisi, **polis polkovnik-leytenantı Hikmət Vəliyevin** sözlərinə görə, təqsirləndirilən şəxsə qanunvericiliyin tələbləri izah edilməklə profilaktiki söhbət aparılıb və o, törətdiyi əməldən peşmançılıq hissi keçirdiyini etiraf edib. Şöbə tərəfindən vətəndaşa dəymiş maddi ziyanın tam ödətdirilməsi təmin olunub.

Sona Xanbabayeva rayon ərazisindəki apteklərdən birində əczaçı işləyib. Elə zərərçəkmiş Zaur Adıgözəlovla da tanışlığı iş əsnasında olub. Zaur apteklərə dərman paylayan kuryerdir. Sona Zaurdan 10 min manat dəyərində götürdüyü uşaq və böyüklər üçün olan bezlərin haqqını uzun müddət ödəməyib. Zaur ondan pulu istəyəndə isə hər dəfə müxtəlif bəhanələrlə ödənişdən yayınıb. Bir müddət keçdikdən sonra pulunu almağa gələn kuryer aptekin bağlı olduğunu və fəaliyyətini dayandırdığını görüb. Çarəsiz qalaraq polisə üz tutub...

İşləri dolaşığa düşən Sona Rusiya Federasiyasına getməyi planlaşdırsa da işi araşdıran Sabunçu RPİ İstintaq şöbəsinin müstəntiqi, **polis kapitanı Elxan Hacıyev** ondan daha tədbirli olub.

*Teymur Əlizadə,*
*polis kapitanı*

## Sentyabr ayının 23-dən 29-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 139 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 69 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 163, o cümlədən borclu şəxs qismində axtarışda olan 71 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 13 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 13 nəfər ölmüş, 7 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 59 fakt müəyyən edilmişdir.

# MARAQ DÜNYASI

*Əvvəli ötən sayımızda.*

### 6. Boynunuzu isti saxlayın

Bədənin başa gedən çox əhəmiyyətli qan damarları və sinirləri boyunda yerləşir. Odur ki, onun da qeydinə qalmaq vacibdir: boynunuzun isti olduğundan əmin olun. Çox gərgin olmayın. Uzun müddət bir nöqtəyə baxmayın və ya kiməsə qulaq asmayın. Hisslərin həddindən artıq fəal şəkildə işləməsi xəstəliklərə səbəb ola bilər.

Həddindən çox qida və içki istifadə etməyin, sağlamlığınızı məhv edərsiz.

Duş qəbul etdikdən və ya yataqdan qalxdıqdan sonra küləkli havaya çıxmayın.

### 7. Sevinc Çi enerjisini artırır

Böyük sevinc — böyük Çi (Kainat enerjisi) enerjisi deməkdir. Böyük kədər Çi enerjisinin notlarını dayandırır. Tüpürcəyi udmaq təməl enerjini artırmaq deməkdir. Əgər udulmazsa, o, öz gücünü itirər.

Xəstə olduğunuz zaman şimala tərəf yatmayın. Yazda və yayda başınızı şərqə, qış və payız aylarında isə qərbə tərəf çevirib yatın.

Əgər yuxudan duran kimi danışmağa başlasanız, o zaman həyat enerjisini itirəcəksiniz.

### 8. Ölçünü gözləyin

Həddən artıq gəzmək sümük bağlarını yorur. Çox oturmaq əzələləri, uzun müddət ayaqüstə qalmaq sümükləri incidir. Çox yatmaq həyat enerjisinə, düşüncələrə qapılmaq isə qana zərər verir.

Qəzəb, üzüntü, peşmançılıq və melanxoliya həddən artıq zövq qədər insana ziyandır. Acı çəkmək, narahatlıq hissi də zərərlidir. Qısası, bütün məsələlərdə ölçü hissini aşmaq zərərlidir.

***Hazırladı: Ruhiyyə Əliyeva***

**Naxçıvan MR** DİN-ə sentyabrın 22-də şəhər ərazisindəki ticarət mərkəzlərinin birindəki mağazadan 315.000 manat pulun oğurlanması barədə müraciət daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən şəhər sakini M.Seyidzadə və Danyeri kənd sakini Y.Əliyev müəyyən edilərək saxlanılmışlar.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 177-ci (oğurluq) maddəsi ilə cinayət işi başlanmışdır.

*****

**Biləsuvar RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Nərimankənd kəndi ərazisində gizlədilmiş 6 kiloqram 925 qram heroin, 4 kiloqram 493 qramdan artıq metamfetamin, 2 kiloqram 980 qram tiryək, 380 qram marixuana və 165 qram “Preqabalin” dərman həbi aşkar edilərək götürülmüşdür. Polis əməkdaşları tərəfindən həmin narkotik vasitələri gizlədənin şəxsiyyəti müəyyən edilmişdir.

*****

**Astara rayon Polis Şöbəsinə** sentyabrın 17-də saat 03:00 radələrində Təngərüd kəndində yaşayan S.Abdullayevin evinə girmiş 3 maskalı şəxsin onun atası, oğlu və həyat yoldaşına bıçaqla xəsarətlər yetirməsi barədə məlumat daxil olmuşdur.




Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş E.Əzizov və Astara rayon sakini, əvvəllər məhkum olunmuş F.Əliyev saxlanılmışlar.

Şəxsi axtarış zamanı E.Əzizovdan 1 ədəd bıçaq aşkar edilərək götürülmüşdür.

Əməliyyat-axtarış tədbirləri davam etdirilir.

*****

Sentyabrın 24-də saat 03:00 radələrində paytaxtın Nizami rayonunun Babək prospektində yerləşən mağazaların birindən **Nizami rayon Mühafizə İdarəsinə** həyəcan siqnalı daxil olmuşdur.

Dərhal polis əməkdaşları həmin ünvana gəlmiş, oradan 3 ədəd mobil telefon oğurlamış şəxs saxlanılmışdır.

Araşdırmalarla onun paytaxt sakini H.Mehmanov olduğu müəyyən edilmiş və aidiyyəti üzrə 23-cü Polis Bölməsinə təhvil verilmişdir.

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10436
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik